# BMT VƏ ONUN ƏSAS ORQANLARININ EKOLOJİ TƏHLÜKƏSİZLİK SFERASINDA FƏALİYYƏTİ

**A.A.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

Ətraf mühitin mühafizəsi sferasında həyata keçirilən beynəlxalq əməkdaşlığın əsas formaları beynəlxalq müqavilələr və sazişlərin bağlanması əsasında çoxtərəfli və ikitərəfli fəaliyyətə əsaslanır. Bu zaman ekoloji problemlərin ümumbəşəri xarakteri bu sahədə dövlətlərin kollektiv cəhdlərinin əlaqələndirilməsi və razılaşma istiqaməti kimi çoxtərəfli beynəlxalq münasibətlərin rolunu kəskin şəkildə artırır. Təbii ki, burada qlobal (universal) beynəlxalq əməkdaşlıq regional, ikitərəfli, o cümlədən müvafiq dövlətdaxili ölçülərə qarşı qoyulmamalıdır. Bütün bunlar ümumilikdə bəşəriyyətin ekoloji təhlükəsizliyinin təmin olunmasına yönəlmişdir. Dövlətlərin universal və regional beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı üzvi vahidlikdə həyata keçirilir: əməkdaşlığın bu iki səviyyəsi bir-birinə ziddiyyət təşkil etmir, əksinə ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq zəncirinin ayrılmaz bəndlərini təşkil edir (6, s. 275).

Bu gün beynəlxalq təbiəti mühafizə əməkdaşlığının zəruriliyi bir sıra obyektiv amillərlə bağlıdır. Bu amillər təbii-ekoloji və sosial-iqtisadi olmaqla iki qrupa ayrılır.

Təbii-ekoloji amillərə Yerin vahid biosferi aid edilir. Hələ 1970-ci ildə V.A.Çiçvarin qeyd edirdi ki, bir təbii ehtiyatın vəziyyətinin istənilən, hətta ilk baxışda az əhəmiyyətli görünən dəyişikliyi məkan və zaman etibarilə digər ehtiyatların vəziyyətinə istənilən halda birbaşa və ya dolayı yolla təsir göstərir (14, s. 19). Biosferin sahə və ehtiyatlarının məhdudiyyəti, ayrı-ayrı unikal təbii obyektlərin ümumdünya irsinin bir hissəsi kimi elan olunması, təbii obyekt və ehtiyatların universal şəkildə səmərəli mühafizəsi və s. təbii-ekoloji amillərə aid edilir. Qeyd edək ki, təbii obyektlərin mühafizəsi və səmərəli istifadəsi yalnız ayrıca götürülmüş bir dövlətin cəhdləri sayəsində mümkün deyil. Məsələn, bioloji və mineral ehtiyatları ilə birlikdə Dünya okeanı, atmosfer havası, atmosferin ozon təbəqəsi, yer ətrafı kosmik fəza, flora və faunası ilə birlikdə Antarktika. Bütün bunlar təbii obyektlər sahəsində dövlətlər tərəfindən imzalanmış çoxsaylı müqavilə və sazişlərlə isbat edilir.

Bütövlükdə, ekoloji problem XX əsrin 60-cı illərinə kimi kifayət qədər hiss olunan miqyaslarda təsvir olunmamışdır. Yalnız son illər fəal ictimai fəaliyyətin və siyasi müzakirələrin predmetinə çevrilmişdir. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əsasını iki vacib prinsip təşkil edir:

- Dövlətlərin hüdüdlarından kənarda ətraf mühitə ziyan vurmaqdan çəkinmələri vəzifəsi. Bu prinsip bir neçə hüquqi qərarlarla təsdiq olunmuşdur. O,

müxtəlif beynəlxalq müqavilələrdə və bir çox digər hüquqi sənədlərdə bilavasitə xatırlanır;

- Dövlətlərin ümumilikdə ətraf mühiti qorumaları vəzifəsi. Bu prinsip müxtəlif ikitərəfli, regional və universal müqavilələrdə şərh olunmuşdur.

Bir qədər sonra ətraf mühitin mühafizəsi haqqında məsələ beynəlxalq hüququn daha məhdud kontekstində – insan hüquqları kontekstində müzakirə edilməyə başlamışdır. İnsanın layiqli şəkildə yaşamaq hüququnu və digər əsas hüquqlarını təmin etməyin daha çətin olması faktı hamı tərəfindən qəbul edilmişdir. Bəzən bu hüquqları böyük ziyana uğrayan ətraf mühitdə təmin etmək ümumiyyətlə mürəkkəbdir. Beləliklə, sağlam təbii mühitdən istifadə hüququ insanın əsas hüquqlarından biri olub, müxtəlif beynəlxalq müqavilələr, digər hüquqi sənədlər və bir çox dövlətlərin konstitusiyaları ilə nəzərdə tutulur (16, s. 11-12).

Ekoloji təhlükəsizliyin qlobal problem olması, təbii ehtiyatlardan genişmiqyaslı istifadə, şübhəsiz ki, iqtisadi fəaliyyət subyektlərinə hüquqi təsir mexanizmləri olan beynəlxalq təşkilatın yaradılması zərurətini gündəliyə gətirir. Bununla yanaşı, beynəlxalq hökumətlərarası təşkilatların funksiya və səlahiyyətləri ilə birbaşa bağlı olan razılaşdırılmış hüquq qabiliyyəti beynəlxalq hüquq subyektliyində mühüm rol oynayır. Hazırda beynəlxalq müqavilələrin bağlanması üzrə beynəlxalq təşkilatların fəaliyyəti genişlənməkdədir (13, s. 111). Bu gün qlobal və regional ekoloji problemlər dövlətlərin bu sahədə ümumməcburi rəftar qaydalarına istiqamətlənməyi, dövlətüstü elementlərə malik beynəlxalq universal təşkilatların yaradılmasının zəruriliyini tələb edir. Müasir dövrdə beynəlxalq təşkilatlar ekoloji problemlərin qlobal xarakterini nəzərə alaraq, ətraf mühitin mühafizəsinin tənzimlənməsi, təbii ehtiyatlardan səmərəli istifadə və onun vacib elementi kimi və ümumilikdə onsuz bütün sistemin fəaliyyətinin praktiki baxımdan mümkün olmadığı ekoloji təhlükəsizliyin təmin olunması üzrə beynəlxalq münasibətlər sisteminə daxil olmuşdur.

Ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatları da fərqləndirmək problemin həlli baxımından əhəmiyyət kəsb edir. Ekoloji problemin rəngarəngliyi beynəlxalq sferada universal və regional; hökumətlərarası və qeyri-hökumət təşkilatları; ümumi yurisdiksiyalı və xüsusi yurisdiksiyalı beynəlxalq təşkilatlar; elmi-texniki, sosial-iqtisadi, nəzarət və s. funksiyalı beynəlxalq təşkilatların yaradılmasını zəruri etmişdir.

Ətraf mühitin mühafizəsi problemi XX əsrin ikinci yarısından sonra bütün bəşəriyyətin diqqətini özünə cəlb etmişdir. Bu məsələ iki əsas xarakteri ilə fərqlənir. Birincisi, bu problem özünün ümumplanetar miqyasda həlli zəruriliyini şərtləndirdiyindən miqyasına görə qlobaldır, ikincisi, bu məsələ aydın şəkildə ifadə olunmuş humanist ümumbəşəri xarakter daşıyır. Bu səbəbdən beynəlxalq təbiəti mühafizə əməkdaşlığı ilk növbədə məqsəd və prinsipləri beynəlxalq ictimaiyyətin proqressiv inkişafı üçün demokratik tələblərə cavab verən, fəaliyyət istiqamətlərindəki genişlik, sahələr müxtəlifliyi və onda təmsil olunan üzv-dövlətlərin sayı baxımından universal təşkilat olan Birləşmiş Millətlər Təşkilatı (BMT) çərçivəsində inkişaf edirdi. Təsadüfi deyil ki, BMT Nizamnaməsinin Preambulası Birləşmiş Millətlərin xalqlarının sosial inkişafa və həyat səviyyəsinin yaxşılaşdırılmasına köməyində qətiyyətini bəyan edir. BMT, Nizamnaməsinin 1-ci maddəsində nəzərdə tutulduğu kimi, beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsinin həyati baxımdan vacib məqsədləri üçün öz fəaliyyətini həyata keçirir. BMT Nizamnaməsinin 1-ci maddəsi Təşkilatın məqsədlərindən biri kimi

«iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində və irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, insan hüquqlarına və əsas azadlıqlarına hörmətin inkişafı və genişləndirilməsi ilə beynəlxalq əməkdaşlığı həyata keçirməyi» nəzərdə tutur. Bundan başqa, BMT bu ümumi məqsədlərə nail olunmasında millətlərin fəaliyyətinin razılaşdırılması mərkəzidir.

Beynəlxalq təbiəti mühafizə əməkdaşlığının təşkili, əlaqələndirilməsi və inkişafı millətlər arasında münasibətlərin müvəffəqiyyəti və sabitliyi şərtlərinin yaradılmasına əhəmiyyətli töhfə vermişdir. Burada əhalinin həyat səviyyəsinin yüksəldilməsi, iqtisadi, sosial, səhiyyə sahələrində beynəlxalq problemlərin və digər problemlərin həlli insan hüquqlarına ümumi hörmət və riayət olunması məsələləri də göstərilir. Bu müddəalar BMT Nizamnaməsinin 55-ci maddəsində əks olunmuşdur. 56-cı maddədə isə Təşkilatın bütün üzvlərin üzərinə yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün birgə və müstəqil fəaliyyət göstərmək öhdəliyi qoyulur. BMT-nin təsis aktında müəyyən olunmuş səlahiyyətlərindən təkcə ətraf mühitin mühafizəsinin təmini üzrə dövlətlərin fəaliyyətnin əlaqələndirilməsi funksiyası deyil, həmçinin beynəlxalq təbiəti mühafizə əməkdaşlığı sahəsində Təşkilatın geniş və çoxşaxəli müstəqil fəaliyyəti irəli gəlir. Bu cür mülahizə beynəlxalq təşkilatların səlahiyyəti haqqında ümumi təlimə təmamilə uyğundur. Q.İ.Tunkinin düzgün qeyd etdiyi kimi, beynəlxalq təşkilatın səlahiyyəti – hüquqi kateqoriya olub, iki aspektə malikdir (12, s. 192). Bu bir tərəfdən beynəlxalq təşkilatın səlahiyyəti – təşkilat tərəfindən idarə olunan məsələlərin məcmusu olub predmet səlahiyyəti adlanır. Digər tərəfdən bu anlayış təşkilatın predmet səlahiyyəti məsələlərinin həllinə kömək göstərmək qabiliyyəti olub, beynəlxalq təşkilata müvafiq hüquqların, səlahiyyətlərin və vəzifələrin verilməsi ilə ifadə olunur. Səlahiyyətin bu aspekti hüquq ədəbiyyatında «tənzimləyici» (A.Y.Kapustin) və ya (P.Ojexovski və Q.S.Səttarova) «hüquqi» adlanır. Beynəlxalq təşkilatın səlahiyyətini bəzən səlahiyyətin özü ilə yanlış qaydada eyniləşdirilən beynəlxalq təşkilatın hüquqi qabiliyyəti ilə müqayisə etmədən düzgün anlamaq mümkün deyil (E.A.Danilov, V.V.Fomin, V.M.Şurşalov, E.T.Usenko). Biz A.Y.Kapustinin nöqteyi-nəzərini əsas götürürük. O, qeyd edir ki, «səlahiyyət və hüquqi qabiliyyət – beynəlxalq təşkilatın hüquqi subyektivlik kimi ümumi anlayışını təşkil edən iki qarşılıqlı şəkildə tamamlanan kateqoriyadır» (10, s. 71). Beynəlxalq təşkilatların və ya onun orqanlarının səlahiyyətləri təsis sənədlərində təsbiti formalarından asılı olaraq birbaşa və dolayı olur. Belə ki, əgər orqanların səlahiyyətləri aydın şəkildə təsbit olunmuşdursa və nizamnamənin və ya digər sənədin mətnində ikimənalı deyilsə, burada söhbət birbaşa səlahiyyətdən gedir. Deyilənlər BMT və onun əsas orqanlarının ekoloji səlahiyyətinin xüsusi olması barəsində nəticəyə gəlməyə imkan verir.

Ətraf mühitin mühafizəsi üzrə beynəlxalq əməkdaşlıq sahəsində BMT-nin səlahiyyətləri obyektiv şəkildə onun Nizamnaməsinin tələblərindən irəli gəlir. Beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, insanı əhatə edən mühitin zəruri keyfiyyətinin təmini beynəlxalq ictimaiyyətin əsas məqsədlərindən biri və bəşəriyyətin gələcək mövcudluğu və inkişafı üçün vacib şərtidir. Ətraf mühitin mühafizəsi şübhəsiz ki, humanitar xarakterli problemlər kateqoriyasına daxildir. Bununla yanaşı, o, kompleks xarakter daşıyır və bir çox iqtisadi, sosial və mədəni aspektlərə malikdir. Nəhayət, beynəlxalq hüququn proqressiv inkişafı, milli hüquq sistemlərinin təkmilləşməsi əlverişli ətraf mühitdə yaşamaq hüququnun insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi tanınması

tendensiyasını daha aydın şəkildə irəli sürür. Artıq qeyd olunduğu kimi, beynəlxalq ekoloji əməkdaşlıqda aparıcı rol BMT-yə və onun ixtisaslaşmış təsisatlarına məxsusdur. Hazırda BMT dövlətlərin təbiəti mühafizə əməkdaşlığının bütün formalarının cəmləşmə mərkəzidir. Universal təşkilat kimi BMT qlobal problem olan ekoloji problemin həlli üçün mövcud mexanizmlərin yaradılmasını təmin edə bilər. BMT qlobal problemlərin həlli gücünə malik beynəlxalq təşkilatlar arasında mərkəzi mövqe tutur. Qeyd etmək lazımdır ki, məhz BMT yarandıqdan sonra dünyada ekoloji təhlükəsizlik və ümumilikdə ətraf mühitin mühafizəsi sahəsində kardinal dəyişikliklər baş vermişdir. Ətraf mühitin mühafizəsi BMT-nin fəaliyyət istiqamətlərindən biridir. BMT-nin bu sahədə fəaliyyətini 3 istiqamətə bölmək olar:

- BMT ətraf mühitin mühafizəsi sahəsində müqavilələr hazırlayır;
- BMT-nin himayəsi altında beynəlxalq konfranslar keçirilir. Belə konfranslar ekoloji problemin müzakirəsi üçün təkcə qlobal səviyyədə forum deyil, eyni zamanda lokal və milli səviyyədə müzakirələrə səbəb olur. Ətraf mühitin mühafizəsi üçün ciddi nəticələr əldə olunur;
- Ətraf mühitin mühafizəsi sahəsində BMT sistemində xüsusi təsisatlar mövcuddur.

BMT sisteminin üstün cəhətlərindən biri onun ümumdünya miqyası, fəaliyyətində siyasi, sosial-iqtisadi və elmi-texniki istiqamətlərin uzlaşması, eləcə də qərarların praktiki şəkildə realizəsinə və digər beynəlxalq hökümətlərarası və qeyri-hökümət təşkilatlarını, milli elmi idarələri və ayrı-ayrı görkəmli alimləri qlobal ekoloji problemlərin həlli istiqamətində səfərbərliyə almaq imkanını verən hökümətlərarası xarakterə malik olmasıdır.

BMT ətraf mühitin mühafizəsi sahəsində dövlətlərarası əməkdaşlığın aşağıdakı formalarının işlənib hazırlanmasında əsas rol oynamışdır: beynəlxalq konvensiyalarda iştirakı; təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi və müxtəlif layihələrin icrası barədə sazişlərin imzalanması; aktual ekoloji problemlər üzrə beynəlxalq konfransların keçirilməsi; ekoloji konsepsiyaların, beynəlxalq proqramların həyata keçirilmə üsullarının işlənib hazırlanması.

Təbiətin mühafizəsinə dair əməkdaşlıq sahəsində BMT-nin daha iri nailiyyətlərinə ətraf mühitin problemləri üzrə üç beynəlxalq konfransın çağrılması aiddir. Bunlar: İnsanı əhatə edən mühitin problemləri üzrə 1972-ci il tarixli BMT Stokholm Konfransı, Rio-de-Janeyroda Ətraf mühit və inkişaf üzrə 1992-ci il tarixli BMT Konfransı və 2002-ci ildə Yohannesburqda keçirilən Sabit inkişaf üzrə yüksək səviyyəli Ümümdünya Görüşüdür. Bu konfranslara həsr olunan külli miqdarda nəşrlərin varlığı bizi işin nəticələrinin və gedişatının zəruri, mükəmməl təhlilindən azad edir (8, s. 180). Yalnız qeyd etmək olar ki, onlar dövlətlərin bu gün beynəlxalq ekoloji münasibətlərin tənzimlənməsində müstəsna şəkildə vacib rol oynayan beynəlxalq ekologiya hüququnun «yumşaq» normalarının işlənib hazırlanmasına bağlılığını nümayiş etdirmişdir. «Yumşaq» hüquq normalarının məzmununa dair səciyyəvi xüsusiyyətlər onun fəaliyyət mexanizminin xüsusiyyətlərini müəyyən edir. Onlar konkret hüquq və vəzifələri deyil, subyektlərin qarşılıqlı fəaliyyətinin ümumi istiqamətlərini müəyyən edir. Beynəlxalq ekoloji münasibətlərin vasitələrinin seçimində və yaranan ekoloji çətinliklərin həllində bu münasibətlərin iştirakçıları şüurlu olaraq «yumşaq» beynəlxalq hüquq normalarının üzərində dayanmışdırlar. BMT-nin Ətraf mühit üzrə 1972-ci il Stokholm Konfransı dövlətlərin və beynəlxalq birliyin ekoloji siyasətində dönüş nöqtəsi olmuşdur. Konfrans 5 iyun 1972-ci il tarixində İsveçin

paytaxtı Stokholm şəhərində keçirilmişdir. Bu Konfransda iki əsas sənəd qəbul edilmişdir: Prinsiplər Bəyannaməsi və Tədbirlər Planı. Prinsiplər Bəyannaməsi dünya ictimaiyyətinin ətraf mühitin problemlərinə münasibətini ifadə edən 26 prinsipdən ibarətdir. Bu prinsiplərin arasında növbəti prinsiplər əsas prinsiplər kimi çıxış etmişdirlər:

- Keyfiyyəti layiqli və firavan yaşamağa imkan verən ətraf mühitdə insanın əlverişli yaşamaq hüququ;
- Təbii ehtiyatların indiki və gələcək nəsillərin rifahı naminə qorunub saxlanılması;
- Dövlətlərin təbii ehtiyatları hasil etmələrinə dair hüquqlarının suverenliyi və ətraf mühitə vurulan ziyana görə məsuliyyəti (2, s. 60).

Stokholm Konfransında qəbul edilən Tədbirlər Planının tərkibi 109 bənddən ibarətdir. Burada ətraf mühitin mühafizəsinin təşkilati, siyasi və iqtisadi məsələləri həll olunur. Konfransın qərarına əsasən mənzil qərargahı Nayrobidə (Keniya) yerləşən BMT-nin ətraf mühitin mühafizəsi üzrə daimi fəaliyyət göstərən təsisatı – (Ətraf Mühit üzrə BMT Proqramı) YUNEP təsis olunmuşdu. YUNEP İnsanı əhatə edən mühitin problemləri üzrə Stokholm Konfransının tövsiyəsi ilə BMT Baş Məclisinin 15 dekabr 1972-ci il tarixli Ətraf mühit sahəsində beynəlxalq əməkdaşlıq üzrə təşkilati və maliyyə tədbirləri adlı 2997 (XXVII) saylı Qətnaməsi ilə təsis olunmuşdur. Bu Qətnamə Proqramın dörd əsas orqanının fəaliyyət istiqamətlərini və səlahiyyətlərinin həcmini müəyyən edirdi. Bu orqanlar: İdarəetmə Şurası, Katiblik, Ətraf mühit üzrə Fond və Ətraf Mühit sahəsində Əlaqələndirmə Şurasıdır. YUNEP-in yaradılmasında əsas məqsədlər - beynəlxalq ətraf mühit hüququnun proqressiv inkişafı, beynəlxalq hüququn yeni sahəsinin prinsiplərinin hazırlanması, ətraf mühitin mühafizəsi üzrə beynəlxalq sazişlərin layihələrinin hazırlanmasına yardım etmək idi. YUNEP-in əsas funksiyası – bu sahədə BMT sisteminin müvafiq orqanlarının və digər maraqlı təşkilatların fəaliyyətinin əlaqələndirilməsidir. YUNEP-in təbiəti mühafizə fəaliyyətinin ən mühüm istiqamətləri aşağıdakılardır: ayrı-ayrı təbiət obyektlərinin mühafizəsi (dəniz mühitinin mühafizəsi, torpağın və şirin suyun qorunması); müxtəlif zərərli təsirlərlə mübarizə (dağılma, çirkləndirmə ilə mübarizə); təbii ehtiyatların səmərəli istifadəsi; ətraf mühitin vəziyyətinin müşahidəsi üzrə dəniz məlumat xidmətinin (monitorinqin) yaradılması; təbiəti mühafizə fəaliyyətinin beynəlxalq-hüquqi əsaslarının işlənib hazırlanması.

1992-ci ildə Rio-de-Janeyroda Ətraf mühit və inkişaf üzrə II Ümumdünya Konfransı keçirildi. Bu əksər ölkələrin hökumət nümayəndələrini, habelə beynəlxalq və qeyri-hökumət təşkilatlarını toplamış böyük zirvə görüşü idi.

Konfransda müzakirə üçün 5 sənəd hazırlandı: Ətraf mühit və inkişaf üzrə Rio Bəyannaməsi; XXI Əsrin Gündəliyi; Meşə prinsipləri; İqlim dəyişikliyi haqqında Çərçivə Konvensiyası; Bioloji müxtəliflik haqqında Konvensiya.

Uzunmüddətli hazırlıq prosesinin yekunu olan Ətraf mühit və inkişaf üzrə Rio Bəyannaməsi bütün dövlətlərin və onların vətəndaşlarının öz fəaliyyətində əsaslanmalı olduğu prinsipləri – ətraf mühitin mühafizəsi və ekoloji tənzimlənməsinin ən mühüm prinsiplərini ehtiva etdi. Məhz Bəşəriyyətin Ekoloji Məcəlləsi kimi obrazlı ad almış Rio Bəyannaməsi ətraf mühitin mühafizəsi məqsədlərinin uyğunlaşdırılması, həmçinin istər inkişaf etmiş ölkələr (İEÖ), istərsə də inkişaf etməkdə olan ölkələr (İEOÖ) qarşısında duran qlobal xarakterli ekoloji çağrışın tanınması baxımından birinci dərəcəli əhəmiyyət kəsb edir. Bəyannamədə qeyd olunduğu kimi, hamı - siyasətçilər, rəsmi qurumlar, qeyri-

hökumət təşkilatları, yerin adi sakinləri – bu çağrışa cavab axtarmalıdır. Rio Bəyannaməsi hüquqi planda məcburi hüquqi qüvvəyə malik deyil. Bunun kimi də Konfrans özü ekologiya hüququna dair beynəlxalq müşavirə deyil, yüksək səviyyəli siyasi forum idi. Lakin bu Sənəd müxtəlif ölkələrin ekologiya hüququnun əsas prinsiplərini xülasə edərək, təbiəti mühafizə qanunvericiliyinin inkişafı işində böyük rol oynadı.

BMT-nin sərəncamında dövlətlərin beynəlxalq təbiəti mühafizə fəaliyyətini inkişaf etdirməklə məşğul olan bütöv orqanlar sistemi mövcuddur. Ətraf mühitin mühafizəsinin beynəlxalq hüquqyaratma prosesi əsasən ixtisaslaşmış qurumlar vasitəsilə həyata keçirilir. Ətraf mühitin mühafizəsilə demək olar ki, tanınmış beynəlxalq təşkilatların əksəriyyəti – BMT-nin ixtisaslaşmış təsisatları və orqanları, universal tipli beynəlxalq qeyri-hökumət təşkilatları, regional və subregional orqanlar məşğul olur. Digər sahələrdə olduğu kimi bu sahədə də beynəlxalq təşkilatların önündə BMT və onun ixtisaslaşmış təsisatları dayanır. Bunlar Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Əmək Təşkilatı (BƏT), BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Dəniz Təşkilatı (BDT), Beynəlxalq Milli Aviasiya Təşkilatı (İKAO), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (ATEBA), BMT-nin əsas orqanlarından Baş Məclis (BM), İqtisadi və Sosial Şura (ECOSOC), BMT Beynəlxalq Məhkəməsidir. Beynəlxalq təbiəti mühafizə tədbirlərinin təşkilində əsas rol BMT BM-ə və ECOSOC-a məxsusdur (11, s. 7-11). BM BMT-nin başlıca məşvərətci orqanı olub, üzv-dövlətlərin nümayəndələrindən ibarətdir. BMT Nizamnaməsinə əsasən Təşkilatın hər bir üzvünün yalnız bir səsi var, üzv ölkələr 5 nümayəndə və 5 müavini ilə təmsil oluna bilərlər. BM BMT Nizamnaməsi çərçivəsində, öz səlahiyyətləri daxilində hər hansı məsələni müzakirə etmək, qərar çıxarmaq BMT orqanlarına və Təhlükəsizlik Şurasına (TŞ) məcuri xarakter daşımayan tövsiyələr vermək, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıqla bağlı hər hansı məsələyə baxmaq və məsləhətlər vermək hüququna malikdir. Təhlükəsizlik Şurası öz fəaliyyəti haqqında BM-ə illik və xüsusi məruzələr edir, digər BMT orqanları isə müvafiq hesabatlar təqdim edirlər (1, s. 18).

BMT BM-i BMT Nizamnaməsinin 10-cu maddəsinə əsasən, Baş Məclis Nizamnamə çərçivəsində istənilən məsələni və işi müzakirə etmək hüququna malikdir. Ətraf mühit məsələləri ilə bağlı yalnız «müzakirə» hüququ ilə müqayisədə xüsusi müddəanın olmaması BM-i müvafiq məsələdə praktiki olaraq qeyri-effektiv edir. Anoloji fikirləri Nizamnamənin 13-cü maddəsinə münasibətdə də qeyd etmək olar. Bu maddəyə əsasən, BM tədqiqatlar təşkil edir və iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə sahələrində beynəlxalq əməkdaşlığa və insan hüquqlarının həyata keçirilməsinə yardım göstərilməsi məqsədilə tövsiyələr verir. 60-cı maddədə birbaşa göstərilir ki, beynəlxalq iqtisadi və sosial əməkdaşlıq sahəsində (burada ətraf mühitin mühafizəsi sferası da qeyd olunur) BMT-nin fəaliyyətinin həyata keçirilməsində əsas məsuliyyət BM və ECOSOC-un üzərinə düşür. Əgər beynəlxalq təşkilatın nizamnaməsi onun orqanları tərəfindən normativ xarakterli qərarların qəbul edilməsi imkanını nəzərdə tutursa, onda belə qərarların və onlarda nəzərdə tutulan normaların səviyyəsi təbii olaraq onun nizamnaməsi ilə müəyyən edilməlidir (15, s. 27).

BM ekoloji təhlükəsizliyin təmin olunmasında öz fəaliyyətini aşağıdakı istiqamətlər üzrə həyata keçirir: beynəlxalq ictimaiyyətin ekoloji siyasətinin əsas istiqamətini müəyyənləşdirir; ətraf mühitin mühafizəsi üzrə dövlətlərin qarşılıqlı əlaqə prinsiplərini işləyib hazırlayır; ətraf mühitin mühafizəsinə dair beynəlxalq

konfransların keçirilməsi haqqında qərarlar qəbul edir; ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq konvensiyaların layihələrini hazırlayır; təbiəti mühafizə orqanları yaradır; ətraf mühitin mühafizəsi sahəsində dövlətlərin çoxtərəfli və ikitərəfli əməkdaşlığının inkişafına yardım göstərir (2, s. 58).

XX əsrin 60-70-ci illərində BM-in ekoloji təhlükəsizliyin təmin olunması sferasındakı fəaliyyətində və onun qəbul etdiyi qətnamələrdə dövlətlərin iqtisadi sahədə, xüsusilə də təbii ehtiyatlardan istifadə və bu zaman ətraf mühitin mühafizəsi məsələləri xüsusi əhəmiyyət kəsb edirdi. BM-in 18 dekabr 1962-ci ildə keçirilmiş 17-ci sessiyasında Təbiəti mühafizə və iqtisadi inkişaf adlı Qətnaməsi və 12 dekabr 1962-ci il tarixdə YUNESKO Baş Konfransının 12-ci sessiyasında demək olar ki, eyni qətnamənin qəbulu ilə onun iştirakçıları yekun olaraq qəbul etdilər ki, təbiəti mühafizə, yəni onun qorunması, bərpası, zənginləşdirilməsi və təbii ehtiyatlardan rasional istifadə və onların məhsuldarlığının artırılması dövlətlərin bilavasitə vəzifəsidir. Qəbul olunmuş Qətnamə üç əsas məqamı özündə əks etdirirdi: birincisi, ətraf mühitin, təbii ehtiyatların, flora ilə faunanın bütöv bir şəkildə nəzərdən keçirilməsi; ikincisi, təbiətin mühafizəsi termininin daha geniş «ətraf mühitin mühafizəsi» terminınə inteqrasiyası; üçüncüsü, təbiətin mühafizəsi və iqtisadi inkişafla bağlı maraqların üzvi uzlaşma konsepsiyası.

BM tərəfindən 14 dekabr 1962-ci ildə 1803 (XVII) saylı Qətnaməsi əsasında konsensus yolu ilə Təbii ehtiyatlar üzərində ayrılmaz suverenlik haqqında Bəyannamə qəbul edilmişdi. Bəyannamə bir tərəfdən İEOÖ-in təbii ehtiyatlar üzərində ayrılmaz suverenliyini müəyyən edən müddəanı nəzərdə tuturdu, digər tərəfdən təbii ehtiyatların qorunması zərurətini nəzərdə tutmurdu. Əksinə Bəyannamə dövlət maraqları və müvafiq dövlətlərin rifahı naminə təbii ehtiyatlara olan hüquqlarını tələb edirdi. 3 dekabr 1968-ci il tarixdə BM-in XXIII sessiyasında qəbul edilmiş Qətnamə vacib əhəmiyyət kəsb edirdi. Belə ki, Qətnamə ilə əsas insan hüquqlarına riayət olunması üçün əlverişli ətraf mühitin rolu müəyyən edilirdi. Məhz bu sessiyada 1972-ci ildə Stokholm şəhərində İnsanı əhatə edən mühit üzrə Beynəlxalq Konfransın çağırılması haqqında prinsipial qərar qəbul edilmişdi (2, s. 59). 1972-ci il tarixli Stokholm Konfransından sonra 1974-cü ildə BM-in xüsusi sessiyasında 3201 (XXIX) saylı Qətnaməsi ilə Yeni beynəlxalq iqtisadi qaydanın yaradılması haqqında Bəyannamə təsdiq olundu. Həmin ilin dekabr ayında BM-in növbəti sessiyasında Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiya qəbul edildi. Burada dövlətlərin iqtisadi inkişafa nail olmaq üçün məqsəd və vasitələr seçmək hüququ qeyd olunurdu. Lakin Xartiyanın 3-cü maddəsində qeyd edilirdi ki, iki və daha çox dövlətə məxsus təbii ehtiyatların istehsalında hər bir dövlət məlumat mübadiləsi və ilkin məsləhətləşmələr əsasında əməkdaşlıq etməlidir. Ancaq dövlətlərin əsas məqsədi bu ehtiyatlardan optimal istifadəyə nail olmaqdır. Hətta bu halda dövlətlər digər dövlətin qanuni maraqlarına vurulan ziyana görə məsuliyyət daşıyırdı. Qeyd etmək lazımdır ki, Bəyannamələr dövlətlərin, onların yurisdiksiyaları daxilində fəaliyyətinin digər dövlətlərin ətraf mühitinə ziyan vurmayacağını təmin etməsi vəzifəsini müəyyən edirdi. Lakin göstərilən dəlillərə baxmayaraq, İEÖ və İEOÖ arasında qarşıdurma nəticəsində inkişafın müxtəlif formaları ilə ətraf mühitə zərər yetirilməsi iqtisadi inkişaf və ətraf mühit məsələlərinin ayrıca müzakirəsinə gətirib çıxarmışdı.

BM-in ekoloji təhlükəsizlik sferasındakı fəaliyyətinə ətraf mühitə hərbi yolla təsirin məhdudlaşdırılmasına dair tədbirlərin həyata keçirilməsi də daxildir. 10 dekabr 1976-cı ildə BM Ətraf mühitə təsir vasitələrindən hərbi və ya digər

düşmənçilik niyyəti ilə istifadənin qadağan edilməsi haqqında Konvensiyanı hazırlamışdı. Konvensiyanın məqsədi – istənilən digər dövlətə ziyan vurmaq məqsədilə dağıdıcılıq üsulu kimi çıxış edən və uzunmüddətli və ya ciddi nəticələrə malik olan təbii mühitə təsir göstərən vasitələrdən hərbi və ya digər düşmənçilik niyyəti ilə istifadənin qadağan edilməsindən ibarətdir. Konvensiya qadağan olunan fəaliyyətlər arasında «təbii proseslərin – Yer kürəsinin dinamikasının, trəkibinin və ya strukturunun məqsədli şəkildə idarə olunması yolu ilə dəyişiklik üçün» istənilən vasitələrin tətbiqinin nəticəsində vurulan ziyanı ayırd etmişdir.

Baş Məclisin qəbul etdiyi qətnamələr beynəlxalq ekologiya hüququnun adət normalarının yaranmasında əsas rol oynamışdı. İ.İ.Lukaşuk qeyd edir ki, beynəlxalq ekologiya hüququnun adət normalarının formalaşmasının ümumi prosesində əsas rol pozitiv hüquqa yol açan beynəlxalq təşkilatların və konfransların qətnamələrinə məxsusdur (9, s. 156). Belə qətnamələrə misal olaraq, XX əsrin 80-ci illərində qəbul edilmiş qətnamələri göstərmək olar. 1981-ci ilin dekabr ayında BMT BM-in 26-cı sessiyasında İndiki və gələcək nəsillər üçün Yer təbiətinin mühafizəsi üzrə dövlətlərin tarixi məsuliyyəti haqqında Qətnamə qəbul edilmişdi. 1982-ci ilin oktyabr ayında isə BM bu sahədə beynəlxalq əməkdaşlığın vacib xüsusi prinsiplərinin təsdiqləndiyi və inkişaf etdirildiyi Ümumdünya Təbiət Xartiyasını bəyənmişdi. 1981-ci il Qətnaməsi bütün dövlətləri və xalqları silahlanmanın qarşısının alınması və ətraf mühitin mühafizəsi üzrə konkret tədbirləri həyata keçirməyə çağırırdı. Ümumdünya Təbiət Xartiyası 1982-ci ilin oktyabr ayının 28-də BMT BM-in 37-ci sessiyasında qəbul edilmiş qətnamədə öz təsdiqini tapmışdır. O, 24 əsas prinsipdən təşkil olunmuşdur. Xartiya ekoloji təhsili ümumi təhsilin tərkib hissəsi kimi nəzərdən keçirmişdir. Xartiyada təbiət haqqında elmi tədqiqatların həyata keçirilməsi və bu biliklərin istənilən növ məlumat sistemləri vasitəsilə yayılması üsulu və genişləndirilməsi zərurəti xüsusi olaraq vurğulanmışdır. Xartiyanın prinsipləri hər bir dövlətin hüquq təcrübəsində və beynəlxalq əməkdaşlıq səviyyəsində öz əksini tapmışdır. Xartiya özünün hüquqi qüvvəsinə görə tövsiyə xarakterli beynəlxalq – hüquqi sənəd kimi çıxış edir. Bu o deməkdir ki, onun prinsip və normaları hüquqi cəhətdən dövlət və beynəlxalq təşkilatlar üçün məcburi əhəmiyyət kəsb etmir, lakin dünya birliyi üzvləri öz praktiki fəaliyyətində təbii mühitin mühafizəsi öhdəliyinə əsaslanmaqla bu Aktın müddəalarına tərəfdar olmalıdır.

BM və ECOSOC-un səlahiyyətlərinin müqayisəsi göstərir ki, ECOSOC ətraf mühitin mühafizəsi sahəsində daha geniş və konkret səlahiyyətlərə malikdir. Əgər BM ümumi, çərçivə xarakterli məsələlərin tənzimlənməsini həyata keçirirsə, ECOSOC əksinə, daha konkret və dəqiq vəzifələrin, o cümlədən təbiətin mühafizəsi sahəsində dövlətlərin əməkdaşlığının əlaqələndirməsinə yardım edir, elmi tədqiqatlar aparır, ətraf mühitin mühafizəsinin beynəlxalq məsələlərinə dair məruzələr tərtib edir və bu problemin istənilən aspektlərinə dair BM-ə, ixtisaslaşmış qurumlara, dövlətlərə tövsiyələr verir. Beynəlxalq təbiəti mühafizə əməkdaşlığının təşkili üzrə öz funksiyalarını həyata keçirməsi üçün ECOSOC BMT Nizamnaməsinin 63, 64-cü maddələrinə əsasən, BMT-nin ixtisaslaşmış qurumları ilə qarşılıqlı təsir mexanizmndən istifadə edə bilər, həmçinin öz fəaliyyətinin ayrı-ayrı sahələrində komissiyalar yarada bilər (maddə 68). Lakin BMT-nin bu iki əsas orqanın funksiya və səlahiyyətlərindəki fərqlilik BMT Nizamnaməsinin 60-cı madəsində müəyyən olunduğu kimi onların bir-birlərinə münasibətdə iyerarxiyasını dəyişdirmir. Əksinə BM və ECOSOC-un ətraf mühitin

mühafizəsi sahəsindəki funksiyalarında mövcud olan differensiasiya bu orqanlarda müəyyən olunmuş iyerarxiyadan irəli gəlir.

Öz işində təbiətin mühafizəsi sahəsində dövlətlərin əməkdaşlığının əlaqələndirməsinə mühüm yer ayıran digər BMT orqanı İqtisadi və Sosial Şuradır (3, s. 515).

BMT-nin beş başlıca orqanlarından biri olan ECOSOC-un statusu BMT Nizamnaməsinin X fəslinin 61-72-ci maddələrinə əsasən müəyyənləşdirilmişdir. Müasir beynəlxalq münasibətlərdə ECOSOC ümumdünya iqtisadi və sosial əməkdaşlıq mərkəzi rolunu oynayır. ECOSOC daimi orqan deyildir, o sessiyalar qaydasında fəaliyyət göstərir. BMT Nizamnaməsinə əsasən, ECOSOC ixtisaslaşmış qurumlar, beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparmaq hüququna malikdir. BMT Nizamnaməsinin 68-ci maddəsi ECOSOC-un iqtisadi, sosial, insan hüquqları və s. sahələrdə köməkçi orqanlar və ya komissiyalar yaratmaq hüququnu əks etdirir.

ECOSOC tədqiqatlar aparır, iqtisadi, sosial, təhsil, səhiyyə sahəsində beynəlxalq məsələlər və digər məsələlərə dair məruzələr tərtib edir və bu problemin istənilən aspektlərinə dair Baş Məclisə, BMT üzvlərinə və maraqlı olan ixtisaslaşmış təsisatlara tövsiyələr verir. ECOSOC çərçivəsində Təbii ehtiyatlar üzrə Komitə fəaliyyət göstərir.

Əgər Stokholm Konfransından sonra YUNEP yaradılmışdırsa, Ətraf mühit və inkişaf üzrə BMT Konfransının (Braziliya 1992) nəticələrindən biri BMT çərçivəsində ECOSOC-un köməkçi orqanı olan Sabit İnkişaf üzrə Komissiyanın yaradılması oldu.

ECOSOC çərçivəsində ətraf mühitin problemləri ilə bağlı yeni komissiyanın təsis olunması ideyası alimlər və hökümətlər arasında böyük dəstəklə qarşılandı. Bu zaman əsas vurğu BMT Nizamnaməsinə əsasən ECOSOC-un malik olduğu və ekologiya sahəsini də əhatə edən geniş səlahiyyətlərin üzərinə düşürdü. Məsələnin bu cür həllinin əleyhdarları ECOSOC çərçivəsində artıq 7 komissiyanın fəaliyyət göstərməsinə və daha bir təşkilatın yaradılmasının dövlətlərin ekoloji sahədəki qarşılıqlı fəaliyyətinin əhəmiyyətini azaldacağına işarə edirdilər. Onların fikrincə, ECOSOC ümumiyyətlə siyasətin bu və ya digər sahədə formalaşmasına dair fəaliyyəti həyata keçirmək iqtidarında deyildir və o, İEOÖ tərəfindən inkişaf etmiş sənaye dövlətlərinin maraqlarını müdafiə edən orqan kimi nəzərdən keçirilir. Bütün bunlardan savayı, BMT iqtisadi və sosial məsələlər üzrə Departamenti vasitəsilə ECOSOC əməkdaşlarının ştatının formalaşması onların hesab etdiyi kimi ekoloji problemlərin həllinə yardım məqsədilə müstəqil personalın yaradılması ideyasına ziyan vuracaqdır. Bu ideyanın mümkün ola bilən alternativi kimi BMT Baş Məclisinin xüsusi komitəsinin və ya BMT Katibliyinin çərçivəsində xüsusi bölmənin yaradılması haqqında təklif irəli sürülmüşdür.

Həmin dövrdə BMT sistemindən kənarda üzvlərinin sayı məhdud olan və nəzarət, məcburilik funksiyalarına malik olan xüsusi beynəlxalq təşkilatın yaradılması layihəsi irəli sürülmüşdü. Belə ki, C.Kennan bu cür təşkilatın şimal yarımqütbünün ölkələrinin ətraf mühitinin çirklənməsinə yardım edən inkişaf etmiş sənaye ölkələrinin səviyyəsində təsis olunması ilə bağlı mülahizələrini bildirmişdi. Lakin bu və buna oxşar layihələr dövlətlərin bir çoxunun və ilk növbədə bütün İEOÖ-in inkişaf etmiş sənaye ölkələri ilə müqayisədə ətraf mühitin mühafizəsi probleminə böyük önəm vermələrini dəstəkləməmişdir. Əks təqdirdə onlar ekoloji məsələlərlə bağlı əməkdaşlıq prosesində iştirak etmək

imkanlarından məhrum ola bilər və bu əməkdaşlığın beynəlxalq-hüquqi prinsipinin universallığının əsaslarını qıra bilərdi.

Nəhayət, ECOSOC çərçivəsində ekoloji təhlükəsizlik və sabit inkişaf məsələləri ilə məşğul olan komissiya yaradıldı. Onun yaranması bilavasitə 1992-ci ildə Rio-de Janeyroda Ətraf mühit və inkişaf üzrə Konfransın nəticələri, xüsusilə də «XXI Əsrin Gündəliyi» ilə əlaqədar olmuşdur.

Komissiya öz funksiyalarını digər köməkçi orqanlarla əlaqəli şəkildə həyata keçirir və öz mandatı çərçivəsində tövsiyələr işləyib hazırlayır. Ümumilikdə Komissiya sabit inkişafın sosial-iqtisadi və ekoloji aspektlərinin kompleks xarakterini nəzərdə tutan siyasətin həyata keçirilməsinə yardım göstərir. Komissiya ECOSOS-un rəhbərliyi altında ətraf mühit və inkişaf məsələlərində cavabdeh olan və Komissiyanın yüksək səviyyəli illik iclaslarının müxtəlif mərhələlərində iştirak etmək tövsiyə olunan, konkret iqtisadi və sosial sektorların fəaliyyətinə cavab verən nazirlər və yüksək səviyyəli milli rəhbərləri öz işinə aktiv şəkildə cəlb etmək məqsədilə razılaşdırılmış qərarlar qəbul edir. Komissiyanın yüksək səviyyəli iclasların mərhələləri üzrə işin təşkilinin yaxşılaşdırılması məqsədilə açıq məşvərətlər keçirən Bürosu fəaliyyət göstərir (7, s. 52-60).

BM-in 1992-ci il 47/191 saylı Qətnaməsinə əsasən Komissiya beynəlxalq əməkdaşlığı gücləndirir və ətraf mühit və inkişaf məsələlərinin inteqrasiyası üçün hökumətlər arasında qərarlar qəbul etmək qabiliyyətinə yardım göstərir və beynəlxalq, regional və milli səviyyələrdə XXI Əsrin Gündəliyinin yerinə yetirilməsini tədqiq edir. Komissiya sabit inkişaf sahəsində könüllü milli məlumatların və məruzələrin təqdim olunması əsasında milli təcrübənin mübadiləsi forumu kimi də çıxış edir. Bununla yanaşı, Dövlətlər könüllülük əsasında sabit inkişaf sahəsində BMT-nin digər konfranslarının müvafiq tövsiyələrinin milli strategiyalara daxil edilməsi istiqamətində öz səyləri haqqında məlumatları Komissiyaya təqdim edə bilərlər.

Bütün bunlarla yanaşı, fikrimizcə, Komissiyanın ekoloji təhlükəsizlik sferasında fəaliyyəti qənaətbəxş deyil, belə ki, Komissiyanın səlahiyyətlərinə hüquqi baxımdan məcburi qərarların qəbulu daxil olmur. Bununla yanaşı, dövlətlər Komissiyaya məruzələrini təqdim etməyə borclu deyil. Onlar sadəcə olaraq bu hüquqa malikdirlər və bu onun nəzarət funksiyalarını əhəmiyyətli dərəcədə məhdudlaşdıraraq Komissiyanı müzakirə klubuna çevirir. Bu klubun əsas vəzifəsi isə dövlətlərin siyasi iradələrinin səfərbərliyə alınmasından ibarətdir.

BMT-nin ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığa kömək edən digər əsas orqanları Katiblik və ətraf mühitə zərər vurulması ilə bağlı mübahisələrə baxılması üzrə xüsusi kameraya malik olan Beynəlxalq Məhkəmədir. Katiblik BMT-nin əsas inzibati orqanı olub TŞ-nin tövsiyəsi ilə BM tərəfindən 5 il müddətinə seçilir və Baş Katibin rəhbərliyi altında fəaliyyət göstərir. Baş Katib sülhə və təhlükəsizliyə qorxu törədə biləcək bütütn məsələləri TŞ-nin nəzərinə çatdırmaq hüququna malikdir.

Məhkəmə qərarları beynəlxalq hüququn «köməkçi» mənbəyi kimi xarakterizə olunur, çünki onlar bilavasitə hüquq yaratmır, artıq mövcud olan hüququ bəyan edir. Bu zaman BMT Beynəlxalq Məhkəməsinin qərarları beynəlxalq hüquqda əhəmiyyətli rol oynayır. Birincisi, bu qərarlarda beynəlxalq hüquq normalarının, xüsusilə adət normalarının dəqiq məzmunu müəyyən edilir. Beynəlxalq Məhkəmənin qərarları beynəlxalq adət hüququnun inkişafına əhəmiyyətli təsir göstərir. Bundan əlavə, Məhkəmənin qərarları, müvafiq sahədə

hüququn necə inkişaf etdiyini və etməli olduğunu göstərməklə, sonrakı təcrübəyə həlledici təsir edə bilər. Bu səbəbdən BMT Beynəlxalq Məhkəməsinin özü, digər beynəlxalq məhkəmələr, habelə milli məhkəmə orqanları BMT Beynəlxalq Məhkəməsinin qərarlarına olduqca nüfuzlu mənbə kimi istinad edirlər. Beynəlxalq Məhkəmə BMT-nin baş məhkəmə orqanı olub, 15 hakimdən ibarətdir, hakimlər TŞ və BM tərəfindən 9 il müddətinə seçilir, üzvlərinin 1/3 hissəsi 3 ildən bir dəyişir. Beynəlxalq Məhkəmə BMT Nizamnaməsində nəzədə tutulan xüsusi Statut əsasında fəaliyyət göstərir. O, dövlətlər arasındakı beynəlxalq mübahisələrin həllində mühüm institut olmaqla, həm də BM-ə, TŞ-na və digər orqanlara hüquqi məsələlərdə sorğular üzrə məsləhətçi rəylər verir. 1993-cü ildə BMT Beynəlxalq Məhkəməsi tərkibində ekoloji məsələlər üzrə kamera (palata), 1994-cü ildə isə - Ekoloji Arbitraj və Barışdırma üzrə Beynəlxalq Məhkəmə (Beynəlxalq Ekoloji Tribunal) təsis edilmişdir.

BMT Nizamnaməsinə və öz Statutuna əsasən Beynəlxalq Məhkəmə bütün hüquqi mübahisələr üzrə işlərə, həmçinin ətraf mühitin mühafizəsi sferasında: a) müqavilənin şərhi; b) beynəlxalq hüququn istənilən məsələsi; c) beynəlxalq öhdəliyin pozulması faktı; ç) beynəlxalq öhdəliyin pozulmasına görə zərərin əvəzinin ödənilməsinin xarakter və həcmi ilə bağl işlərə baxır. BMT Nizamnaməsinin 36-cı maddəsinə əsasən tərəflər hüquqi xarakterli mübahisələri ümumi qayda olaraq Məhkəmə Statutunun müddəalarına uyğun olaraq Beynəlxalq Məhkəməyə verməlidir. Öz növbəsində Statutun 36-cı maddəsində qeyd olunur ki, Məhkəmənin səlahiyyətlərinə beynəlxalq öhdəliyin pozulması ilə bağlı mübahisələrə baxılması ilə yanaşı, beynəlxalq öhdəliyin pozulmasına görə zərərin əvəzinin ödənilməsinin xarakter və həcmi ilə bağlı mübahisələr də daxildir. Ətraf mühitə zərər yetirilməsi ilə bağlı mübahisələr bir qayda olaraq, beynəlxalq öhdəliklərin pozulması və bu pozuntuya görə kompensasiya ilə bağlı məsələlərlə sıx şəkildə bağlıdır. İşin məhkəmə aidiyyatı üzrə mübahisədə tərəflərin razılığı əsasında təbiəti mühafizə mübahisələri sferasında BMT Beynəlxalq Məhkəməsinin birbaşa səlahiyyətlərinə ətraf mühitlə bağlı mübahisələrə baxılması üçün Məhkəmədə xüsusi kameranın yaradılması da daxildir. Təbiəti mühafizə mübahisələrinin həlli üzrə, BMT Nizamnaməsinin 96-cı maddəsinə və Statutun IV fəslinə uyğun olaraq, Məhkəmə BMT-nin orqanlarına və ixtisaslaşmış qurumlarına istənilən hüquqi məsələ və ətraf mühitin mühafizəsi üzrə müxtəlif aspektlərə dair tövsiyələr verə bilər.

Beynəlxalq Məhkəmənin praktikasında dövlətlər arasında hərbi-siyasi mübahisələr və onun ekoloji təhlükəsizliyə təsiri ilə bağlı mübahisələrə baxılması da mühüm yer tutur. 1949-cu ildə BMT Beynəlxalq Məhkəməsi Korfu kürfəzində Britaniyaya məxsus iki hərbi gəminin Albaniyanın ərazi sularında quraşdırılmış minada partladılması üzrə və Korfu kürfəzinin Albaniyanın suverenliyini pozmaqla britaniyalılar tərəfindən minadan təmizlənməsi haqqında qarşılıqlı iddia ilə əlaqədar mübahisəyə baxmışdır (5, s. 53).

BMT Beynəlxalq Məhəkəməsi praktikasında kütləvi qırğın silahları, onların ətraf mühitə ciddi, uzunmüddətli və genişmiqyaslı zərərli təsiri ilə mübarizə tədbirləri də mühüm yer tutur. Kütləvi qırğın silahlarından istifadə və onların ətraf mühitə təsiri beynəlxalq müqavilələrə və ekologiya hüququnun prinsiplərinə ziddir. BMT Beynəlxalq Məhkəməsi nüvə silahının qadağan olunması haqqında işində qeyd edirdi ki, ətraf mühitə bu gün daimi təhlükə var və nüvə enerjisindən istifadə böhrana səbəb olardı. Məhkəmə öz qərarında göstərirdi ki, dövlətlər bu sahədə öz fəaliyyətlərini həyata keçirərkən digər

dövlətlərin və milli ərazidən kənar məkanın ətraf mühitinə zərər yetirməməlidir (4, s. 365-366). Məhkəmənin qərarında təsdiq edilirdi ki, dövlətlər öz üzərilərinə götürdükləri ümumi öhdəliklərin mövcudluğu şəraitində fəaliyyətlərini elə qurmalıdırlar ki, öz milli ərazilərindən kənarda yerləşən digər dövlətlərin və ya ərazilərin ətraf mühitinə ziyan yetirməsinlər və bu da öz növbəsində, ətraf mühitin qorunmasına dair beynəlxalq adət hüququn tərkib hissəsini təşkil edir.

Qəyyumluq Şurası qəyyumluq idarəçiliyi altında olan ərazilərə nəzarət edən bir orqandır. Onun tərkibində 2 qəyyum dövlətin və 5 böyük dövlətin nümayəndələri, habelə göstərilən iki qrup dövlətlərin BM tərəfindən 3 il müddətinə seçilmiş üzvləri daxildir. Qəyyumluq sistemi qarşısında qoyulmuş əsas vəzifə bu sistemlə əhatə olunmuş ölkələrin xalqlarını öz müqəddəratını təyin etmək və istiqlaliyyət əldə etmək istiqamətində inkişaf etdirməkdən, yerli əhalinin siyasi, iqtisadi və ictimai tərəqqisinə, hüquq və azadlıqlarının təmin olunmasına yardım etməkdən ibarətdir. Müasir dövrdə müstəmləkəçiliyin dağılması, qəyyumluq sisteminin də ləğv edilməsini zəruri etmiş, təşkilat 1994-cü ildən öz fəaliyyətini dayandırmışdır. Hazırda onun ləğv edilməsi və ya yeni bir quruma çevrilməsi ətrafında danışıqlar aparılır. M.Stornq BMT-nin Qəyyumluq Şurasında köklü islahatlar aparılmasını təklif edir. Belə ki, o hesab edir ki, bütün bəşəriyyətə məxsus ehtiyat və məkan üzərində qəyyumluq funksiyası bu quruma verilməlidir. Onun fikrincə, Qəyyumluq Şurası yenidən təşkil olunaraq dirçəldilməlidir. Bu formada planetar sistem kimi bütövlüyü, təhlükəsizliyi, sağlamlığı təmin etmək məqsədilə qəyyumluq həyata keçirilə bilərdi.

Müasir mərhələdə ətraf mühitin mühafizəsinin beynəlxalq-hüquqi probleminə BMT-nin ayırdığı diqqətin konkret təsdiqi kimi, dövrümüzün vacib hüquqi sənədi olan 6-8 sentyabr 2000-ci ildə Nyu-Yorkda keçirilmiş və 8 sentyabr 2000-ci il tarixində Yeni Minillik Sammitində qəbul olunmuş Minilliyin Bəyannaməsində xüsusi bölmə (dördüncü) kimi verilməsi çıxış edir. O, bütün tarix boyu dünya liderlərnin iştirak etdiyi, 147 dövlət və hökumət başçısının və ümumilikdə 191 dövlətin narahatlığına səbəb olan problemi əks etdirirdi. Ətraf mühitin mühafizəsi sahəsində dünya ictimaiyyətnin ümumi məqsədləri naminə BMT bir sıra xüsusi tədbirlər qəbul etmək barədə öz qətiyyətini elan etmişdi. Konkret planda zəruri davranışın növbəti parametrləri müəyyən edilirdi:

- Bütün bəşəriyyətin, ilk növbədə bütün insanların, onların tələbatlarının ödənilməsi üçün ehtiyatların çatışmayacağı və insan fəaliyyəti ilə ümidsiz şəkildə pozulan planetdə yaşaması təhlükəsindən azad olması məqsədilə qərarlı şəkildə tədbirlər qəbul etməsi öhdəliyi.
- Konseptual şəkildə yüksək səviyyədə sabit inkişaf prinsiplərinin, həmçinin Ətraf müfit və inkişaf üzrə BMT Konfransında razılaşdırılmış və XXI əsrdə gündəlikdə duran prinsiplərin dəstəklənməsi.
- Minilliyin Bəyannaməsinin məqsəd və vəzifələrinə nail olunması qaydasında 2002-ci ildə Ətraf mühit və inkişaf üzrə BMT Konfransının onuncu ildönümü münasibətilə Kioto Protokolunun qüvvəyə minməsini təmin etmək üçün bütün qüvvələrin sərf olunması qətiyyəti və orada nəzərdə tutulan parnik qazlarının tullanmasının məhdudlaşdırılmasına başlamaq; meşə təsərrüfatının sabit inkişafı və bütün növ meşələrin qorunması və yaradılması üçün kollektiv səylərin aktivləşdirilməsi; bioloji müxtəliflik haqqında konvensiyaların və ciddi quraqlıq və səhralaşma olan ölkələrdə (xüsusilə də Afrikada) səhralaşma ilə mübarizə haqqında konvensiyaların tam həyata keçirilməsinə nail olmaq; sudan ədalətli şəkildə istifadəyə imkan verən milli, regional səviyyələrdə su təsərrüfatı strategi-

yalarını hazırlamaqla su ehtiyatlarının qeyri-rasional istismarını dayandırmaq; təbii fəlakətlərin və antropogen qəzaların azaldılması və nəticələrinin aradan qaldırılması məqsədilə əmkdaşlığı aktivləşdirmək; insan genomu barədə məlumatların azad şəkildə əldə olunmasının təmini; təbiətə münasibətdə yeni mühafizə və məsuliyyət etikasının bütün ekoloji fəaliyyətlərində qəti istəyi predmetli şəkildə qeyd edilirdi.

8 sentyabr 2000-ci il tarixli Minilliyin Bəyannaməsi müasir dövrün vacib sənədi kimi BMT BM-i tərəfindən yekdilliklə qəbul edilmişdi. Bəyannamə yenidən aydın və dəqiq şəkildə BMT-nin və onun beş əsas orqanının (Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura Beynəlxalq Məhkəmə və Katiblik) vacib beynəlxalq problemlərin, həmçinin ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin qəbul edilməsində rolunu qeyd etmişdi.

Hazırda BMT ətraf mühitin mühafizəsi sferasında məqsədyönlü işini davam etdirir, lakin dünyada söz sahibi olan dövlətlərin Təşkilatın fəaliyyətinə müdaxiləsi bu yolda müəyyən ləngimələr yaradır. 2005-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT BM-in 60-cı yubiley sessiyası öz işini başa çatdırmışdı. Ona böyük ümidlər bəsləyən mütəxəssislər məyus olmuşdu. Belə ki, onun iştirakçıları ekoloji səlahiyyətlərin güclənməsinə gətirib çıxaran təşkilatın islahatları haqqında ümumi razılığa gələ bilməmişdirlər.

## ƏDƏBİYYAT


1. Rəcəbli H.M. BMT-nin İxtisaslaşmış qurumları. Bakı, «Azərbaycan» nəşriyyatı, 2003.
2. Балашенко С.А., Макарова Т.И. Международно-правовая охрана окружающей среды и права человека. Учебное пособие. Минск, «World Wide Printing», 1999.
3. Бекяшев К.А. Международное Публичное Право. Учебник. М., Проспект, 2003.
4. Блищенко И.П., Дориа Ж. Прецеденты в международном публичном и частном праве. М., 1999.
5. Дубовик О.Л. Экологическое право. Учебник. О.Л.Дубовик, Л.Кремер, Г.Люббе-Вольфф. Под ред. О.Л.Дубовик. Изд. 2-е, исп. и доп. М., Эксмо, 2007.
6. Копылов М.Н. Международные организации и охрана окружающей среды. В кн. Международные организации. М., Изд. РУДН, 1994.
7. Кукушкина А.В. Концепция устойчивого развития (екологический, экономический и социальный аспекты). МЖМП. М., № 4, 2002, с. 52-60.
8. Кузьменко Э.Ю. Роль международных конференций по окружающей среде в кодификации и прогрессивном развитии международного экологического права. Международное право – International Law 2005, № 1, р. 179-189.
9. Лукашук И.И. Международное право. Особенная часть. Учебник. М., Изд-во. БЕК, 1997.
10. Международные организации. Отв. ред. И.П.Блищенко. М., 1994.
11. Тимошенко А.С. Международное сотрудничество по охране окружающей среды в системе ООН. М., Наука, 1981, с. 7-11.
12. Тункин Г.И. Тероия международного права. М., 1970.
13. Шибаева Е.А. Право международных организаций. М., Международные Отношения, 1986.
14. Чичварин В.А. Охрана природы и международные отношения. М., Международные Отношения, 1970.
15. Черниченко С.В. Международное право: современные теоретические проблемы. М., Международные Отношения, 1993.
16. Schwartz Michelle, Preliminary Report on Legal and Institutional Aspects of the Relationship between Human Rights and the Environment, Geneva, August 1999. p. 11-12.

## ДЕЯТЕЛЬНОСТЬ ООН И ЕЁ ОСНОВНЫХ ОРГАНОВ В СФЕРЕ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

**А.А.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

В данной статье проанализирована деятельность ООН и её основных органов в сфере экологической безопасности в соответствии с международной практикой и разногласий в юридической литературе. Особенно надо отметить то, что несмотря на все трудности, ООН смог создать механизмы в разрешении экологической проблемы в трех направлении: ООН принял договора в сфере защиты окружающей среды, были проведены конференции под эгидой ООН, созданы органы по этой сферы в системе ООН.

## ACTIVITY OF THE UNITED NATIONS AND ITS BASIC BODIES IN SPHERE OF ECOLOGICAL SAFETY

**A.A.MAHARRAMOV**

**SUMMARY**

In given article it has been analyzed activity of the United Nations and its basic bodies in sphere of ecological safety according to the international practice and pluralism of ideas in literatures. Especially it is necessary to note that, despite all difficulties United Nations, have create mechanisms in the environmental problem permission in three direction: the United Nations has accepted contracts in sphere of protection of environment, it has been spent conferences under the aegis of the United Nations, United Nations system have created bodies on this spheres.